**UNEC-də**

**ABİTURİYENT AYLIĞI**

| | Tədbir | Tarix<br>və məkan | Tədbirin məzmunu |
|---|---|---|---|
| 1. | Abituriyentlər və valideynlər üçün **Açıq Qapı Günü** | **24 iyun**<br>10:00-13:00-dək<br>**Əsas tədris binası,**<br>İstiqlaliyyət küçəsi, 6<br><br>**1 iyul**<br>10:00-13:00-dək<br>**III tədris binası**,<br>Murtuza Muxtarov, 194.<br><br>**8 iyul**<br>**II tədris binası,**<br>Həsən Əliyev, 135.<br><br>**15 iyul**<br>**IV tədris binası,**<br>Abbas Səhhət 45A | Abituriyent və valideynlər UNEC-də tədris olunan ixtisaslar, tədris dilləri, xarici universitetlərlə ikili diplom proqramları, xüsusi təqaüd imkanları, Universitet Daxili İki diplom proqramı, Minor proqramı, karyera imkanları, tələbə təşkilatları, sosial həyat, tədris binaları, imtahan prosesi və UNEC-in digər imkanları barədə ətraflı məlumatlar əldə edəcəklər.<br><br>Eyni zamanda tədris binaları və universitetin infrastrukturu ilə tanış olacaqlar.<br><br>Həmçinin onları maraqlandıran suallara cavab tapa biləcəklər. |
| 2. | Abituriyent və valideynlərin **“UNEC rektoru ilə görüş”**ü | Həftənin 5-ci günləri<br>saat 11:00-12:00<br>**4, 11 iyul**<br>**Əsas tədris binası,**<br>İstiqlaliyyət küçəsi 6.<br><br>**18 iyul, III tədris binası,**<br>Murtuza Muxtarov, 194. | Abituriyent və valideynlər rektorla görüşərək sualları birbaşa ona ünvanlamaq, eləcə də universitet barədə yenilikləri rektordan öyrənmək imkanı əldə edəcəklər. |
| 3. | **“Gələcəyin ixtisasları” adlı tədbir** | **16 iyul**<br>saat 11:00<br>**Əsas tədris binası,**<br>İstiqlaliyyət küçəsi, 6.<br>Ağ zal | Abituriyentlər rektoru müşaviri, “İqtisadiyyat” kafedrasının müəllimi, dosent Elşən Bağırzadə ilə görüşəcəklər.<br><br>**Görüşün məqsədi** abituriyentləri əmək bazarının dəyişən tələbləri ilə tanış etmək, |

| | | | |
|---|---|---|---|
| | | | gələcəkdə daha çox tələbat olan sahələr barədə məlumat vermək məqsədi daşıyır.<br><br>Görüş zamanı UNEC-in təqdim etdiyi müasir ixtisaslar, rəqəmsal bacarıqlar və karyera imkanları haqqında faydalı məlumatlar paylaşılacaq və interaktiv müzakirələr keçiriləcək. |
| 4. | **“Sual ver - cavab verək”**<br>sorğu posteri | Həftənin 1-ci günləri<br>23, 30 iyun<br>7, 14 iyul. | **“Sual ver – cavab verək”** təşəbbüsünün məqsədi abituriyentlərin və valideynlərin UNEC-lə bağlı suallarını operativ və ətraflı cavablandırmaqdır.<br><br>UNEC-in rəsmi sosial şəbəkələrində hər həftənin 1-ci günləri paylaşılan müvafiq posterin altına suallarınızı ünvanlaya bilərsiniz. |
| 5. | **UNEC Bot vasitəsilə sualların cavablandırılması imkanı** | 7 gün 24 saat | **UNEC Bot vatsap kanalı: 0124926043**<br><br>Abituriyent və valideynlər “Abituriyent aylığı” çərçivəsində keçiriləcək tədbirlər barədə ətraflı məlumat almaq, eləcə də görüşlərdə və tədbirlərdə iştirak etmək məqsədilə qeydiyyatdan keçmək üçün **UNEC Bot vatsap kanalına** yaza bilərlər. |